# Sənət adamlarının yaxın dostu

Dahi şəxsiyyət Heydər Əliyev haqqında fikir söyləmək məsuliyyətli olduğu qədər də çətindir. Elə bir sahə tapmaq olmaz ki, böyük rəhbərin çoxşaxəli fəaliyyəti onu əhatə etməmiş olsun. Bu xüsusiyyət ilk növbədə ulu öndərə İlahidən verilən fitri istedaddan irəli gəlirdi.

Heydər Əliyevin rəssamlıq təhsili alması və gələcəkdə rəssam olmaq istəyi sonralar onun yüksək yaradıcılıq əzmini, qurub-yaratmaq şövqünü həmişə qüvvətləndirmişdir. Ulu öndər deyirdi: "Gənclikdə rəssamlığa böyük həvəsim var idi. Mənim çəkdiyim ilk rəsmlərdən biri Füzulinin portreti olmuşdur. Təxminən 1936-1937-ci illərdə məktəbimizdə şagirdlərin rəsmlərindən ibarət sərgi təşkil etmişdilər. O vaxtlar belə şeylərə çox fikir verirdilər. Mənim çəkdiyim portret müsabiqədə birinci yeri tutmuşdu. Əlbəttə, mən onu rəssamlıq əsəri adlandırmaq fikrində deyiləm, o, sadəcə olaraq, rəssamlığa həvəs göstərən gəncin çəkdiyi şəkil idi".

Heydər Əliyevin incəsənətimizin inkişafında və tərəqqisində xüsusi xidmətləri olmuşdur. Apardığı uğurlu siyasətin xüsusi sahəsi olan mədəniyyət bu gün özünün intibah mərhələsini yaşamaqdadır. Heydər Əliyevin neçə-neçə mədəniyyət obyektinin - teatr, konsert, qalereya, sərgi salonu, mədəniyyət evi, kinoklub və s. tikintisinə, yenidən qurulmasına və əsaslı təmirinə, yaradıcılıq ittifaqlarının maddi-texniki bazalarının yaxşılaşdırılmasına, sənət adamlarına - şair, yazıçı, bəstəkar, rəssam, memar, rejissor, aktyor və başqalarına Prezident təqaüdlərinin verilməsinə, fəxri ad, yüksək orden və medallarla təltif edilməsinə, onların yubileylərinin keçirilməsinə, incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsinə dair imzaladığı sərəncamları ayrı-ayrılıqda qeyd etmiş olsaq, yüzlərlə yaddaqalan səhifə yaranar.

Hələ sovet dönəmində Azərbaycanın tanınmış sənət adamlarına göstərdiyi diqqət və qayğı, yaradıcı şəxslərlə yaxın dostluq əlaqələri Heydər Əliyevə yüksək sənət adamları arasında dərin hörmət və nüfuz qazandırmışdı. 1981-ci ilin aprelində ulu öndərin təşəbbüsü və yaxından iştirakı ilə Bakıda SSRİ Rəssamlıq Akademiyası Rəyasət Heyətinin geniş iclası təşkil olunmuş, həmçinin müxtəlif şəhərlərin 17 rəssamlıq institutunu bitirmiş tələbələrin diplom işlərindən ibarət Ümumittifaq sərgisi keçirilmişdi. SSRİ Rəssamlıq Akademiyası Rəyasət Heyətinin və təhsil üzrə Elmi-Metodiki Şuranın iclasında həmin sərgi müzakirə olunmuşdu. Müzakirələrdə SSRİ Rəssamlıq Akademiyasının, V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun, İ.Y.Repin adına Leninqrad (indi Sankt-Peterburq) Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun, Kiyev, Minsk, Riqa, Tbilisi rəssamlıq institutlarının nümayəndələri, tanınmış rəssamlardan T.Salahov, F.Reşetnikov, A.Mılnikov, V.Vanslov, B.Uqarov, M.Boqdanov, B.Dexterov, O.Savostyuk, K.Rojdestvenski, A.Lopuxov, İ.Zarin, Q.Totibadze və başqaları iştirak etmişdilər. Həmin tədbirdə Heydər Əliyevin dərin məzmunlu nitqi ümumittifaq əhəmiyyətli, proqram mahiyyətli sənəd kimi qarşılanmış, "Təsviri sənət ustalarının yüksək vəzifəsi" adı ilə nüfuzlu "İskusstvo" jurnalı, "Sovetskaya kultura" qəzeti və eləcə də digər mətbu orqanlarda dərc olunmuşdu.

Heydər Əliyevin iştirakı və xeyir-duası ilə Bakının Mərdəkan qəsəbəsində rus şairi Sergey Yeseninin xatirə lövhəsinin (heykəltəraş Fuad Salayev, 1972), Ulyanovsk şəhərində Nəriman Nərimanovun heykəlinin (heykəltəraş İbrahim Zeynalov, 1977), Bakıda şair və mütəfəkkir Nəsiminin heykəlinin (heykəltəraşlar Tokay Məmmədov və İbrahim Zeynalov, 1980), əfsanəvi kəşfiyyatçı, Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin xatirə-memarlıq kompleksinin (heykəltəraş V.Y.Siqal, memar Mikayıl Useynov, 1981), akademik Yusif Məmmədəliyevin heykəlinin (heykəltəraş Akif Əsgərov, 1998) və b. sənət adamlarının yaxından iştirakı ilə açılış mərasimləri təşkil olunmuş, ulu öndərin müəlliflərlə görüşü və onları yaxından təbrik etməsi ilə yadda qalmışdır. Bu gün də həmin heykəllər Bakının memarlıq quruluşunda müstəsna əhəmiyyət kəsb edir.

17 dekabr 1994-cü ildə Heydər Əliyevin "Səttar Bəhlulzadənin anadan olmasının 85 illik yubileyi haqqında" sərəncam imzalaması, rəssamın Milli İncəsənət Muzeyində təşkil olunmuş yubiley sərgisində və Respublika sarayında təntənəli yubiley gecəsində iştirak etməsi və nitq söyləməsi incəsənət xadimlərini, o cümlədən rəssamları çox sevindirmişdi. Həmin nitqində Heydər Əliyev rəssam haqqında demişdi: "Mən onu yaxşı tanıyırdım. 60-cı illərin əvvəllərində Səttar Bəhlulzadə ilə şəxsi münasibətlərim var idi və mən Azərbaycana rəhbərlik edərkən onun sənətini sevdiyimə və bir insan kimi ona hörmət etdiyimə görə bu böyük rəssamla təmaslarım olmuşdur. O, qeyri-adi insan idi..."

Heydər Əliyevlə Ömər Eldarovu möhkəm dostluq telləri bağlayırdı. Bəlkə də Ömər Eldarov yeganə sənətkar idi ki, ulu öndərin naturadan obrazını yaratmaq xoşbəxtliyinə nail olmuşdur. Böyük sənətkar ulu öndərin bir neçə abidəsini yaradıb. Heydər Əliyevin Fəxri xiyabanda yerləşən məzarı üzərindəki abidə-kompleks onlardan biridir. İstedadlı tişə ustası ulu öndərin dəqiq fərdi-psixoloji xarakterini əks etdirən obrazını Azərbaycan Respublikasının xəritəsi fonunda təsvir etməklə əsrarəngiz bir sənət əsərinin yaranmasına nail olmuşdur.

1998-ci ildə T.Nərimanbəyovun Bakıda Kamera və orqan musiqisi zalında təşkil olunan möhtəşəm konsertində Heydər Əliyevin iştirakı, rəssamla görüşməsi incəsənət aləmində yaddaqalan məqamlardan biri idi.

21 avqust 1998-ci ildə Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din və idman xadimlərinin böyük bir qrupuna "Şöhrət" ordeninin təqdim edilməsi mərasimində ulu öndərin iştirakı, sənət adamları ilə səmimi söhbətləri bütövlükdə ölkəmizdə incəsənətin inkişafına göstərilən dövlət qayğısının ən parlaq nümunəsi idi. Həmin görüşdə Heydər Əliyevin xalq rəssamı, heykəltəraş Mirələsgər Mirqasımovun orden alması münasibətilə təbriki, xalq rəssamları Maral Rəhmanzadənin ulu öndərə təşəkkürü, Elbəy Rzaquliyevin xatirə qələmi bağışlaması və eləcə də ulu öndərlə Böyükağa Mirzəzadənin hərarətli dialoqu olduqca təsirli idi.

Ulu öndər Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli sərəncamı ilə yaradılmış və 2002-ci ildə açılışı olmuş Azərbaycan Dövlət Rəssamlıq Akademiyası bu gün qabaqcıl təhsil ocağı kimi öz nüfuzunu qoruyub saxlamaqdadır.

Hazırda özünün intibah dönəmini yaşayan Azərbaycan mədəniyyəti ulu öndər Heydər Əliyevin siyasi məktəbinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən çox uğurla inkişaf etdirilir. Artıq mədəniyyət aləminin hər bir sahəsində inanılmaz dərəcədə naliyyətlər əldə olunmuşdur. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın rəhbərliyi ilə məmləkətimizdə, hətta xarici ölkələrdə bir neçə möhtəşəm mədəniyyət layihəsi həyata keçirilmişdir.

***Əsəd QULİYEV,***
***Milli İncəsənət Muzeyinin böyük elmi işçisi,***
***Rəssamlar İttifaqının üzvü, sənətşünas***